**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.82**

**ZEYNƏB QULİYEVA, AYSEL İSMAYILOVA, SƏFƏR ƏLİYEV**

# XƏLƏC ABİDƏLƏRİNİN TARİXLƏNDİRİLMƏSİ MƏSƏLƏSİ

*Məqalədə I Xələc və II Xələc abidələrinin nisbi və mütləq xronologiyasını təyin edən faktlar təqdim olunur. I Xələc yaşayış yeri müxtəlif dövrlərdə tədqiq edilsə də, C14 analizləri olmadığından tarixləndirilməsi nisbi xronologiyaya əsaslanırdı. 2024-cü ildə burada aparılmış arxeoloji qazıntılar zamanı götürülmüş kömür analizlərinin nəticəsi abidənin mütləq xronologiyasını müəyyənləşdirməyə imkan vermişdir. Onun yaxınlığında qeydə alınan II Xələc yaşayış yeri isə ilk dəfə olaraq arxeoloji qazıntılara cəlb edilmiş və dövrü müəyyənləşdirilmişdir. Hər iki abidənin C14 analizlərinin müqayisəli təhlili II Xələc yaşayış yerinin I Xələc yaşayış yerindən sonra məskunlaşdırıldığını göstərməklə, Erkən Dəmir dövründən Antik dövrə, xüsusilə Naxçıvan bölgəsində tədqiq olunmamış səhifələrdən olan Son Antik dövrdən Erkən orta əsrlərə keçid mərhələsinin öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır.*

**Açar sözlər:** *I Xələc, II Xələc, C14 analizləri, Dəmir dövrü, Son Antik dövr.*

**Giriş.** Qədim mədəniyyətlərin aşkara çıxarılması qədər onların xronoloji çərçivəsinin müəyyən edilməsi də arxeologiya elminin aktual məsələlərindən olmuşdur. Azərbaycanın müxtəlif bölgələrində aşkar edilən I Kültəpə, Şomutəpə, Göytəpə, Leylatəpə, Ovçulartəpəsi kimi onlarla abidə aid olduqları mədəniyyəti və xronoloji müəyyənliyi ilə tarixə öz möhürünü vura bilmiş, beynəlxalq arenada lazımi səviyyədə təmsil olunmuşdur. Bununla yanaşı, Azərbaycan arxeologiyasının bir çox məsələlərinə aydınlıq gətirə biləcək, zəngin materiallara malik olan, lakin mütləq xronologiyası dəqiqləşdirilmədiyi üçün bəzən arqumentləri şübhə altına alınan abidələr də az deyil. Xələc yaşayış yeri də belə abidələrdəndir. Burada tədqiqatlar ötən əsrdən başlamış [14, s. 29], keramika məmulatının müqayisəli təhlilinə əsasən müxtəlif tədqiqat əsərlərində İlk Tunc, Eneolit, Neolit dövrlərini əks etdirdiyi qeyd olunmuşdur [14; 3; 4]. Həmin dövrlərin karbon təhlillərlə təsdiqlənməsi ehtiyacı 2024-cü ildə burada arxeoloji qazıntıların aparılmasının başlıca stimullarından olmuşdur. Bununla bağlı Xələc kəndində kəşfiyyat araşdırmaları zamanı ikinci bir abidənin olduğu müəyyən edildiyindən daha əvvəldən məlum olan abidə I Xələc, digəri II Xələc yaşayış yerləri olaraq adlandırılmışdır [8, s. 58]. Xələc abidələrində aparılmış qazıntılarda əsas məqsədlərdən biri olaraq mədəni təbəqənin qalınlığı və tarixinin müəyyənləşdirilməsi qarşıya qoyulmuşdur [9, s. 6].

**Arxeoloji tapıntıların ilkin təhlili.** Araşdırmalar nəticəsində I Xələc yaşayış yerində 10×10 metr ölçüsündə şurf qoyulmuş, daha sonra 2,2×2,5 metr ölçüsündə kiçildilərək 4 metr dərinliyədək davam etdirilmişdir. Qazıntılar zamanı daş düzümlərindən ibarət divar qalıqları, daş qutu qəbir və avadanlıqları, az sayda obsidian, ikisi bütöv qab olmaqla çoxsaylı keramika fraqmenti əldə edilmişdir. Tapıntıların ilkin təhlilinə əsasən I Xələc yaşayış yerinin çoxtəbəqəli olması ilə bağlı tədqiqatçıların fikirləri təsdiq olunmuş, əlavə olaraq, mədəni təbəqənin qalınlığı və materialların çoxluğuna əsasən burada Erkən Dəmir dövründə yaşayışın digər dövrlərlə müqayisədə daha uzunmüddətli olduğu müəyyən edilmişdir [10, s. 112].

II Xələc yaşayış yerindən 4 tikilinin qalıqları, ocaq yeri, skelet qalıntıları, yanmış ağac və kül qalıqları, xeyli miqdarda keramika aşkar edilmişdir. II Xələc yaşayış yerinin tapıntılarının ilkin araşdırılmasına gəlincə, əldə edilən sütun altlığı, iriölçülü ictimai tikili qalığının və güclü yanğın əlamətlərinin olması ilə bağlı faktlara əsasən onun ictimai-siyasi idarəçilik mərkəzi olduğunu göstərir.

Hər iki abidədə qazıntıların ilkin nəticələri yeni tapıntıların müqayisəli təhlilinə əsasən müəyyən edilmişdir. Onlardan götürülən kömür analizləri bu nəticələri təsdiqləmişdir. Məqalənin yazılmasında məqsəd I və II Xələc yaşayış yerlərinin C14 analizlərini təqdim etmək, onların xronoloji çərçivəsi ilə bağlı yeni faktları təqdim etməkdən ibarətdir.

**Xələc abidələrinin xronoloji çərçivəsi.** Hər iki abidənin mütləq xronologiyasının müəyyənləşdirilməsi üçün kömür nümunələri seçilərək 2024-cü ildə İtaliyanın Lesse şəhərindəki laborato-

riyaya göndərilmişdir. I Xələc yaşayış yerindəki şurfdan götürülmüş kömür nümunələri (I X-24, A-1041) 3,5 metr dərinlikdən əldə edilmişdir. II Xələc yaşayış yerində qazılmış şurfdan, A sahəsindəki birinci və ikinci tikilinin içərisindən kömür nümunələri toplanmışdır. Lakin yer səthindən dərinlik nəzərə alınaraq, ikinci binaya (A-030) aid döşəmədən (dərinlik: 1,2 metr) götürülmüş kömür nümunələri (II X-24, A-1034) analiz üçün göndərilmişdir (cədvəl 1).

**Cədvəl 1**

**Kömür nümunələrinin çöl qeydiyyat (1) və laboratoriya (2) kodları**

| *Sample ID* | *CEDAD Code* |
|---|---|
| IXA-1041 | **LTL33779** |
| IIXA-1034 | **LTL33780** |

| *Sample* | *Radiocarbon Age (BP)* | *$\delta^{13}C$ (‰)$^{(**)}$* |
|---|---|---|
| **LTL33779** | **2964 ± 40** | **-18.4 ± 0.2** |
| **LTL33780** | **1836 ± 40** | **-22.3 ± 0.4** |
| | | |

Kömür analizləri nəticəsində hər iki abidəyə aid C14 analizləri əldə edilmişdir. Burada diqqət çəkən məqamlardan biri də nisbi xronologiya ilə mütləq xronologiyanın uzlaşması məsələsidir.

I Xələc yaşayış yerindən aşkar edilən tapıntıların ilkin dəyərləndirilməsi, xüsusilə boz-qara rəngli keramika məmulatının sinxronları ilə müqayisəli təhlili onları Erkən Dəmir dövrünə aid etməyə imkan verirdi [10, şəkil 4]. Buradan aşkar olunan qabların bir qisminin tipoloji baxımdan Aşağı Daşarx, Zeyvə, II Sarıdərə, Oğlanqaladan [2, şəkil 6, 1-2; 11,23; 39, 9], I-II Dəmirçi nekropollarından [7, şəkil 1-2] aşkar olunan qablarla oxşarlıq təşkil etməsi, həmçinin Azərbaycanın digər bölgələrinin həmdövr materialları ilə [12, рис. 17] də müəyyən oxşarlığın olması bu fikrə gəlməyə əsas verirdi. Yaşayış yerinin karbon analizləri e.ə. 1370-1355/1295-1046 tarixlərini göstərməklə abidənin nisbi tarixləndirməsini təsdiqləyir (cədvəl 2).

Qeyd etmək lazımdır ki, I Xələcin yerüstü tapıntıları hələ Neolit dövründən burada məskunlaşma olduğunu göstərir. 4 metr dərinlikdə qazılmış şurfda isə Erkən Tunc, Orta Tunc və Dəmir dövrü təbəqələri aydın izlənilir. Ən üst təbəqə Orta əsrlər dövründə salınmış qəbirlərlə dağılmış və təbəqələr qarışmışdır. Bu fakt söyləməyə imkan verir ki, Dəmir dövründən sonra yaşayış yeri tərk edilmişdir. Üst təbəqələr dağılmış olsa da, burada Antik dövrdə yaşayış əlamətini göstərə bilən nümunələrə yerüstü tapıntılar arasında belə rastlanmaması yuxarıdakı fikri təsdiq edir. I Xələcdə Dəmir dövründə kəsilmiş mədəniyyətin davamı ondan 2-3 kilometr şərqdə yerləşən II Xələcdə qarşımıza çıxır. Buradan toplanan yerüstü tapıntılar içərisində I Xələcin Erkən Dəmir dövrü ilə oxşar keramika nümunələrinə rast gəlinmişdi. Arxeoloji qazıntılar nəticəsində buradan aşkar edilən arxeoloji materiallar bu tarixdən sonrakı dövrü əks etdirir.

II Xələc yaşayış yerində qeydə alınmış tikili qalıqlarında divarların çəhrayı rəngli gil qatı ilə səliqəli suvanması, həmçinin açıq yaşıl rəngli məhlulla suvanmış döşəmənin sağlam şəkildə üzə çıxarılması da burada xüsusi əhəmiyyətli memarlıq olduğunu göstərirdi. Tədqiqat əsərlərində Naxçıvan ərazisindəki Sumbatan-Dizədə, Oğlanqalanın II dövrünə aid təbəqəsində, Meydantəpədə aşkar edilmiş ictimai məqsədli tikililər qədim qala-şəhər yerlərinin qalıqları kimi dəyərləndirilmiş, onların eramızın ilk əsrlərində, daha dəqiq desək, eramızın III əsrində dağıldığı və tədricən öz əvvəlki təyinatını itirdiyi qeyd olunmuşdur [6; 13]. Belə idarəçilik mərkəzlərinin təxminən eyni dövrdə dağıntıya məruz qalması diqqət çəkir. II Xələcin ictimai binalarında izlənən güclü yanğın timsalında

da eyni mənzərə izlənilir. Belə evlərdən birindən götürülmüş kömür analizləri b.e. 118-258/280-329 tarixlərini göstərmişdir (cədvəl 3).

**Cədvəl 2**

**I Xələc yaşayış yerinin C14 analiz nəticəsi (IXA-1041 = LTL33779)**




Bu faktlar yaşayış yerinin eramızın ilk əsrlərində güclü yanğına məruz qaldığından xəbər verir. Sasani işğalları, Atropatena və Albaniyanın onlara qarşı mübarizəsi dövrünə uyğun gələn bu xronoloji çərçivə göstərir ki, Naxçıvan Antik və Erkən orta əsrlər dövründə işğalçılara qarşı mübarizənin istinadlarından biri olmuşdur.

II Xələcin keramika repertuarında bu tarixi təsdiqləyəcək nümunələr az deyil. Buradan aşkar olunan oval oturacaqlı kasalar, həmçinin qulp tipləri Nərgiztəpənin keramika məmulatı içərisində analoqlarını tapır [5, şək. 25]. I Poylunun e. ə. IV – b. e. III əsri arasındakı dövrə aid edilən Antik dövr keramikasının bəzi elementləri, xüsusilə, ağız kənarı xaricdən köbəli kasalar, çubuqşəkilli qulplar [11, s. 46-56, şəkil 1] II Xələcdə geniş yayılmış, novalçalı fraqment isə bir nümunə ilə təmsil olunmuşdur. II Xələcin ağzı xaricə doğru qalınlaşdırılmış kasa tipli qablarının bir qismi tipoloji baxımdan Oğlanqalanın Erkən Dəmir dövrü qabları ilə analogiya yaradır [2, şəkil 39, 1-11]. Qabların digər qismi özünəməxsus elementləri ilə fərqlənir. Yeni elementlər daha çox Antik dövrdən Erkən Orta əsrlərə keçid dövrünü əks etdirir. Naxçıvan ərazisində Antik dövrlə bağlı abidələr aşkarlansa da [1; 6], Antik dövrün sonu – Erkən orta əsrlərə keçid dövrü öyrənilməmişdir. II Xələc məhz bu dövrün arxeoloji qazıntılara cəlb edilən və mütləq xronologiyası bəlli olan ilk abidəsidir. Bütövlükdə Xələc abidələri Daş dövrünün sonundan başlayaraq Erkən orta əsrlərədək olan böyük bir zaman kontekstində formalaşmış mədəniyyətləri kəsintisiz izləməyə imkan verir. Onlardan əldə edilmiş ilkin karbon analizlər Naxçıvan ərazisində Dəmir dövrü, Antik dövr və Erkən orta əsrlərə məxsus mədəniyyətlərin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

**Cədvəl 3**

**II Xələcdən götürülmüş C14 nəticələri (IIXA-1034 = LTL33780)**




**Nəticə.** Xələc abidələrində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar burada formalaşmış qədim mədəniyyətlərin nisbi xronologiyası və mütləq xronologiyasını təyin edən yeni faktlar vermişdir. I Xələcdən götürülmüş kömür analizləri e.ə. 1370-1355/1295-1046 tarixlərini göstərməklə, e. ə. II minilliyin sonlarında burada mövcud olmuş Erkən Dəmir dövrü mədəniyyətinin xronoloji çərçivəsini müəyyənləşdirməyə imkan verir. II Xələcdən götürülən kömür analizlərinin nəticəsi b. e. 118-280 illəri göstərmişdir. Sasani işğalları, Atropatena və Albaniyanın onlara qarşı mübarizəsi dövrünə uyğun gələn bu xronoloji çərçivə göstərir ki, Naxçıvan Antik və Erkən orta əsrlər dövründə işğalçılara qarşı mübarizənin istinadlarından biri olmuşdur.

Hər iki abidənin C14 analizlərinin müqayisəli təhlili II Xələc yaşayış yerinin I Xələc yaşayış yerindən sonra məskunlaşdırıldığını göstərir. Onlardan əldə edilmiş ilkin karbon analizlər Naxçıvan ərazisində Dəmir dövrü, Antik dövr və Erkən orta əsrlərə məxsus mədəniyyətlərin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Aşurov S.H., Bədəlov Ə. Şərurun antik dövr abidələri // Bakı: Azərbaycan tarixi problemləri üzrə gənc tədqiqatçıların birinci Respublika konfransının məruzələri, 1991, s. 80-82.
2. Baxşəliyev V. Naxcıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
3. Baxşəliyev V.B. Xələc keramikasının xüsusiyyətləri // Naxçıvan Universitetinin Elmi Əsərləri, 2020, № 2, s. 158.
4. Baxşəliyev V. Şərur rayonunun Eneolit abidələrinin dövrləşdirilməsi // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 80-81.

5. Əliyev T.R., İbrahimli B.İ., Əliyeva G.İ. Qarabağda Nərgiztəpə abidələr kompleksi. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 96 s.
6. İbrahimli, B., Qədirzadə, Q. 2010-cu ildə Rəsul Dərəsində aparılmış arxeoloji tədqiqatlar (Naxçıvan MR, Ordubad rayonu) / Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı, 2011, s. 152-158.
7. Quliyeva Z. Naxcıvanın Erkən Dəmir dövrü mədəniyyəti yeni tapıntılar işığında // Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı: 7-8 iyul 2021-ci ildə keçirilmiş beynəlxalq konfransın materialları. Naxçıvan: Əcəmi, 2023, s. 34-39.
8. Quliyeva Z. Xələc abidələri: yerüstü tapıntıları və perspektivlər // Şərqin qapısı – qədim diyar: May 2024-cü ildə keçirilmiş konfransın materialları. II kitab, Naxçıvan: Əcəmi, 2024, s. 89-96.
9. Quliyeva Z., Əliyev S., Tağıyev Ə., İsmayılova A., Rzayeva R., İsmayılova A., Abbasov H., Əliyeva N., Zalova Ş. Xələc abidələrində 2024-cu ildə aparılmış arxeoloji qazıntılar. AMEA Naxçıvan Bölməsinin arxivi, 125 s.
10. Quliyeva Z. I Xələc yaşayış yerinin Erkən Dəmir dövrü təbəqəsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər, 2024. № 2, s. 107-113.
11. Müseyibli N., Nəcəfov Ş. Ağstafa Antik dövr abidələri / Qafqaz Albaniyasının etno-mədəni irsi: Məqalələr toplusu. № 2, Bakı, 2021, s. 46-56.
12. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур: эпоха энеолита и бронзы. Баку: Изд-во АН Азерб. ССР, 1959, 190 с.
13. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании: (III в. до н. э. – VIII в. н. э.) Баку: Элм, 1986, 284 с.
14. Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку: Билик, 1993, с. 29.
15. Ristvet L., Gopnik H., Bakhshaliyev V., Hannan L., Ashurov S. and Bryant R. On the Edge of Empire: 2008-2009. Excavations at Oğlanqala Azerbaijan // American Journal of Archaeolog,. Chicago, 2012, v. 116/2, pp. 321-362.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: zeynebguliyeva@outlook.com***
***E-mail:aysel_ismayi@mail.ru***
***E-mail:sefer.alv085@gmail.com***

**Zeynab Guliyeva, Aysel Ismayilova, Safar Aliyev**

## PERIODIZATION PROBLEM OF THE KHALAJ MONUMENTS

The article presents facts that determine the relative and absolute chronology of the Khalaj I and Khalaj II settlements. The Khalaj I settlement was studied at different times, but they used relative dates because C14 analyses weren't done. The outcomes of carbon dating conducted during archaeological excavations conducted here in 2024 enabled the determination of the absolute chronology of the monument. The Khalaj II settlement, discovered nearby, was included in archaeological excavations for the first time, and its date was determined. The comparison of the C14 analyses of both monuments indicates that the Khalaj II settlement was inhabited after the Khalaj I settlement. This finding holds great significance for the study of the transition phase from the Early Iron Age to the Classical Period, particularly from the Late Classical Period to the Early Middle Ages, which remains an unexplored chapter in the history of the Nakhchivan region.

**Keywords:** *Khalaj I, Khalaj II, C14 analysis, Iron Age, Late Antiquity.*

**Зейнаб Гулиева, Айсель Исмаилова, Сафар Алиев**

## ПРОБЛЕМА ДАТИРОВКИ ПАМЯТНИКОВ ХАЛАДЖА

В статье приводятся факты, определяющие относительную и абсолютную хронологию поселений Халадж I и Халадж II. Хотя поселение Халадж I изучалось в разное время, его датировка основывалась на относительной хронологии, поскольку анализы C14 не проводились. Результаты анализов угля, взятого во время археологических раскопок, проводившихся здесь в 2024 году, позволили определить абсолютную хронологию памятника. Поселение Халадж II, обнаруженное неподалеку, впервые было включено в археологические раскопки, и был определен его период. Сравнение анализов C14 обоих памятников показывает, что поселение Халадж II было заселено после поселения Халадж I и имеет большое значение для изучения переходной фазы от Раннего железного века к Античному периоду, особенно от позднего античного к раннему средневековью, которое является одной из неисследованных страниц истории Нахчыванского края.

**Ключевые слова:** *Халадж I, Халадж II, анализ C14, Железный век, Поздний античный период.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.02.2025**
**Son variant 19.03.2025**